# Gənc rəssamların yaradıcılığında mənzərə janrının yeri

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra təsviri sənətdə mənzərə janrı da özünəməxsus inkişaf mərhələsinə başlamışdır. Azərbaycan təsviri sənətinin çağdaş ümumi panoramı özündə rəssamlarımızın müxtəlif nəsillərinin fərqli temperamentini geniş, çoxcəhətli və bir az da dəyişkən çeşidli yaradıcılığını əks edirir. Azərbaycan rəngkarlığının müasir mərhələsinin inkişafında böyük əməyi olan gənc rəssamlardan N.Məmmədov, S.Məmmədov, R.Nuriyev, H.Məhərrəmov, X.Səmədov, B.Yusufov, C.Həmzəyevin, R.Məmmədov, A.Hüseynzadə, H.Həsənov, T.Mirkazımzadə və C.Ağayevin adlarını xüsusi qeyd etmək lazımdır

Zəkiyə Nuriyeva,
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin doktorantı
Email: zekiye_nuriyeva@mail.ru

Nazim Məmmədovun mənzərə janrında yaratdığı əsərlərdə təbiətə sıradan yox, istedadlı vurğunluq açıq-aydın hiss edilir. O, yalnız daxilən sevdiyi, fikrən anladığı mövzuları fırçaya alır. Rəssamın yaratdığı təbiət lövhələri elə məhz buna görə bu qədər gözəl və inandırıcı alınır. Müəllifin "Mənzərə" adlandırdığı boyakarlıq kompozisiyasında təbiətin bədii-estetik dəyəri özünəməxsus keyfiyyətlərilə yaz fəslinin görüntüləri ön plana çəkilir, gözlərimizin önündə "oyanır". Bu yaradıcılıq işində yurdumuzun bərəkətli torpağının ümumiləşdirilmiş obrazı əsaslı - real səpkidə yox, rənglərin məlum qeyri-səlisliyilə öz əksini tapmışdır. Əsasən ağ, yaşıl, oxra rənglərindən geniş istifadə edilmiş bu mənzərədə təbiət oyanır. Əsərin canına hopdurulmuş hərarət dolu kolorit bütün bu cəlbediciliyin estetik daşıyıcısı kimi çıxış edir.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru S.Sadıqov gənc rəssam Nazim Məmmədovun yaradıcılığı barəsində qeyd etmişdir: *"Gənc nəslin nümayəndələrindən rəssam Nazim Məmmədovun əsərləri öz qeyri-adekvatlığı ilə fərqlənən maraqlı obrazlar, süjet, kompozisiya və mənzərələr toplusudur"* (2, səh. 14).

Mənzərə – gənc rəssam Ceyhun Həmzəyevin öz yaradıcılığında geniş yer ayırdığı janrlardan biridir. Bunu, ilk növbədə, rəssamın müşahidə qabiliyyətinin genişliyi, ətraf mühitin gözəlliyini duymaq istedadı ilə əlaqələndirmək olar. Onun çəkdiyi mənzərələr arasında doğma yurdumuzla bahəm qardaş Türkiyənin təbiət və memarlıq motivlərinin təsvirinə də rast gəlinir. Bunlara misal olaraq, onun "Baharda", "Yay", "Bahar nəğməsi", "Mədənə gedən yol", "Tac", "Qırmızı buruq", "Buruqlar", "Günəşli gün", "Qağayılar", "Milli parkda", "Köhnə hamam", "Küçə", "Bakı mənzərəsi", "İstanbulda məscid", "Qayıqlar" və "Yağışdan sonra" və s. rəsmlərini göstərmək olar.

Gənc fırça ustasının uğurlu əsərlərindən olan "Baharda" mənzərəsində çiçəklərin isti çalarlarının ağacların "soyuq" kölgəsilə yaratdığı təzadlı bütövlük heyranedicidir. Təbiətin yeniləşməsini təsvir edən rəssam, süjetin bədii şərhi üçün elə bu fəslin ruhuna uyğun ifadə vasitələri seçmişdir. Çiçək açmış müxtəlif ağacların daşıdığı gözoxşayan təravətin dinamik yaxılarla təqdimatı da bunun təsdiqidir.

Rəssamın "Yay" adlandırdığı digər bir təbiət motivli əsərində bu ürəkaçan kənd mənzərəsi xüsusi şövqlə işlənmişdir. Ön plandakı iri ağacların ifadəli silueti, arx üzərindəki kiçik körpü, düzənlikdə otlayan inəklər, və arxa fonda sıralanmış kənd evləri və digər təsviri reallıqlar rəssam təfsirində olduqca cəzbedici alınmışdır. Müəllifin "Bakı mənzərəsi" əsərində isə paytaxtın payız aləmi rənglər bolluğunun bədii təqdimatında verilib. Qarşıdakı geniş əraziyə quş qanadları arasından göz qoyan rəssam, bu əhatəli sahənin günəş işığı təsiri altında rəngdən-rəngə düşməsinə yaddaqalan görkəm verə bilmişdir. Ərazinin payız libasının rəng çalarları landşaftdan aşılı olaraq, sarımtıl-yaşıldan parlaq sarıya, narıncıdan bənövşəyi-zoğalıya qədər dəyişməklə, ruhlandırıcı keyfiyyətləri sərgiləməkdədir. Sənətşünaslıq üzrə fəlsəfə doktoru Z.Əliyev "Sönmüş ocağın işıqları" kitabında yazır: "Yalnız ona təəssüflənirik ki, gənc rəssam Ceyhun Həmzəyevin başladığı və gələcək uğuruna şübhə etmədiyimiz bu işi yarımçıq qaldı. Əks halda, yaxın gələcəkdə Ceyhun bizə hamını təəccübləndi-



783



Nazim Məmmədov, "Kənd mənzərəsi"



Ceyhun Həmzəyev "Bahar nəğməsi"



Ceyhun Həmzəyev "Yay"



Bəxtiyar Yusifov
"Bahar vaxtı"



Cəlal Ağayev
"İçərişəhər mənzərəsi"



Sübhan Məmmədov
"Mirvari"

racək əsərlər təqdim etmək gücündə idi" (1, səh. 44).

Gənc rəssam Bəxtiyar Yusufovun yaradıcılığında parlaq bir ruh yaşayır. O, yaratdığı əsərlərdə həmişə bu parlaqlığı qorumağa çalışır. Müəllifin "Payız", "Yaz mənzərəsi", "Abşeronda", "Balaxanı neft buruqları", "Dəniz mənzərəsi", "Kənd görünüşü", "Qarpız natürmortu", "Gül natürmortu" və s. əsərlərinə tamaşa edənlər bunu aydın hiss edirlər. Onun "Yaz mənzərəsi"ndə yaz fəslinin görüntüləri tamaşaçıya kompozisiya halında təqdim olunur. Bədii-estetik keyfiyyətlərin ön plana çəkildiyi bu mənzərədə yurdumuzun bərəkətli torpağı rənglərin dililə ümumiləşdirilmiş obraz kimi əks olunub. Gənc rəssamın "Payız mənzərəsi" tablosunda təsvir olunmuş eyniadlı fəslin əsrarəngiz gözəlliyi, sarı-narıncı rənglərin vəhdətindən yaranan kolorit sayəsində olduqca uğurlu və inandırıcı alınıb. Ağac yarpaqlarının sarı-qızılı rəngləri əsərə əlavə cəlbedicilik bəxş edib.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Samir Sadıqov gənc rəssam Bəxtiyar Yusufovun yaradıcılığı haqqında qeyd edir: "Bəxtiyar Yusufovun yaradıcılığı özündə müasir Azərbaycan incəsənətinin xarakterik cəhətlərini əks etdirir. Ümumiyyətlə, rəssamın mənzərə əsərlərindən alınan təəssürat çox rəngarəng və ahəngdardır. Bu əsərlərin yalnız emosional-bədii əhval-ruhiyyədə reallaşaraq, rəng və formaların sakit, lirik harmoniyasında təzahür etdiyinin şahidi oluruq" (4, səh. 12).

İxtisas təhsilinin qrafika olmasına baxmayaraq, Cəlal Ağayevin yaratdığı rəngkarlıq əsərlərində mənzərələr, portretlər, natürmortlar çox təsirli və baxımlı alınır. Onun fəaliyyəti həyat təcrübəsinin daim zənginləşməsi, düşüncələrin inkişafı ilə səciyyələnən məntiqi bir yoldur. Gənc rəssamın yaratdığı "Bulvar mənzərəsi", "İçəri Şəhər", "Dəniz" və s. mənzərələr yüksək professionallıqla işlənmiş sənət nümunələridir. Onun dənizkənarı bulvarla bağlı yaratdığı mənzələr içərisində "Bulvar", özünün də etiraf etdiyi kimi, ən məzmunlu tablolardan biridir.

Günü-gündən inkişaf edən ölkəmizdə istirahət parklarının da görünüşü dəyişir, inkişaf edir. Rəssamın dənizi və sahillərini çox sevən dənizkənarı bulvara hər gəlişində naturadan etdiyi eskizlər bunlara bir nümunədir. Bu əsərlər, mən deyərdim, gələcək uzunu dəyişəsi nəsillərçün həm də bir tarixi məlumat-məxəz olacaqdır. Bu əsərlərin yaddaqalan rəng və kompozisiya həllinin seyrçiləri heyran edəcəyi öz yerində!..

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru S.Sadıqov gənc rəssam Cəlal Ağayevin yaradıcılığından bəhs edərkən, onun yaradıcı fantaziyasını xüsusi vurğulayır: *"Cəlalın rəngkarlıq əsərləri, öz subyektivliyi və qeyri-normativliyi ilə cəmiyyətin sosial həyatının ümumi anlayış kontekstindən çıxarılaraq, müəllifin dərin fərdi və subyektiv emosiyalarının, bəzən özünün də sonadək aça bilmədiyi həyəcanların, hiss və ideyaların ifadəsi kimi təqdim edilir"*** (3, səh. 11).

İstedadlı gənc rəssamlardan olan Sübhan Məmmədovun yaradıcılığında rəngkarlığın mənzərə janrı özünəməxsusluğu ilə seçilir. Rəssamın "Bakı", "Payız mənzərəsi", "Mirvari" adlı mənzərələrində şəhər görünüşü ilə təbiətin füsunkar görkəmi vəhdətdə canlandırılmışdır. Müəllifin dənizdən baxılan "Bakı" mənzərəsində şəhərin sahilyanı hissəsi və paytaxtımızın rəmzinə çevrilmiş "Qız qalası" canlandırılıb. Təsvirdəki üfüq genişliyində dərinliklərə doğru bir vüsət, perspektivlilik hiss olunur. Diqqətli nəzərlərə bu da aydın olur ki, rəssam bu təəssürata maraqlı üslub, məharətli fırça, habelə əsas rəng və onun zəngin yarımton nüanslari sayəsində nail olur. Bu kolorit ustalığı isə boyakarlıq üsulunun mənzərə məkanını daha canlı və dəyişkən edir.

Mənzərə janrı gənc rəssam Taleh Mirkazımzadənin də yaradıcılığında aparıcı sahədir. Onun "Bakı buxtası", "Yaxta-klub", "Qala divarı", "Kənd mənzərəsi", "Nar ağacları", "İpək yolu", "Qız Qalası" mənzərələrində əsasən, lirik təbiət səhnələri, şəhər və kənd görüntüləri əks olunub. Gənc rəngkar öz yaradıcılığı fantaziyasını daha da inkişaf etdirib cilalamaq üçün daim doğma paytaxtımızı gəzib-öyrənir, onun özünəməxsus, təkraredilməz gözəlliyinə sənət ələvələri edir.

İstedadlı gənc rəssamlardan Həsən Həsənovun yaradıcılığında "Əmircan kəndi. Xilə", "Kürdəxanı", "Mərdəkanda mil qaya" mənzərə əsərləri xüsusilə fərqlənir. "Əmircan kəndi. Xilə" mənzərəsində bu qədim Abşeron kəndi küçələrindən birinin görünüşündə hər şey qeyri-adi görkəmdə, əsasən, ruhani bir biçimdə, duyğulandırıcı rəng ovqatında əks etdirilib. Kompozisiyanın mərkəzi hissəsində məşhur "Muxtarov məscidi"nin səmaya ucalan qoşa minarəsi rəssam tərəfindən torpağa-yurda sonsuz sevgi hissilə fırçaya alınmışdır.

Sonda qeyd edək ki, Azərbaycanın rəngkarlıq nümunələri hər yerdə, müxtəlif yerli və beynəlxalq müsabiqələrdə, o cümlədən biennale və simpoziumlarda böyük uğurlar qazanmışdır. Bu uğur və inkişafın ən önəmli məziyyətlərindən biri nəsillər estafetinin daim istedadlı əllərə keçməsidir. Keçmişə hörmətdən və yaradıcı dərkdən keçən bu məziyyət isə milli rəngkarlığımızın həmişəyaşarlığını şərtləndirir... ❖



Həsən Həsənov
"Əmircan kəndi"



Taleh Mirkazımov
"Kənd mənzərəsi"


**Ədəbiyyat**

1. Z.Əliyev, C.Həmzəyev. "Sönmüş ocağın işıqları". Bakı – 2013.
2. S.Sadıqov. "Rəssam Nazim Məmmədovun sənət dünyası". "Paritet" qəzeti. Bakı – 2012.
3. S.Sadıqov. "Qrafik rəssam Cəlalın rəngkarlıq əsərləri". "Paritet" qəzeti. Bakı – 2012.
4. S.Sadıqov. "Gənc rəssam Bəxtiyarın rənglər aləmi". "Paritet" qəzeti. Bakı – 2012.



**Резюме**

В статье рассматриваются и анализируются пейзажные работы ряда молодых художников. Среди них следует отметить Назима Мамедова, Субхана Мамедова, Рашада Нуриева, Гамида Магеррамова, Хайяма Самедова, Бахтияра Юсифова, Джейхуна Гамзаева, Рамина Мамедова, Анара Гусейнзаде, Гасана Гасанова, Талеха Миркасимзаде, Джалала Агаева и др., в творчестве которых пейзажный жанр развивается как ведущее направление.



**Ключевые слова:** пейзаж, независимость, цвет, композиция, молодой, реалист.



**Summary**

In article, landscape works during independence years by young artist were analyzed and described. Nazim Mammadov, Subhan Mammadov, Rashad Nuriyev, Hamid Maharramov, Xeyyam Samadov, Bakhtiyar Yusifovub, Ceyhun Hamzayev, Ramin Mammadov, Ramin Mammadov, Anar Huseynzadeh, Hasan Hasanov, Taleh Mirkazimzadeh, Calal Agayev noted among these young artists and that genre was a main point in their creativity.



**Key words:** landscape, independence, color, composition, young, realist